## *Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri vardır. Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir.*

# Heydər Əliyev - zamanı aşan lider



*Zaman keçdikcə tarix səhnəsində parlayan şəxsiyyətlər unudulur, silinir, dəyişir. Lakin elə şəxsiyyətlər var ki, zamanın sərt axarına sinə gərərək daim yaşayır, yeni nəsillərə yol göstərir. Azərbaycan xalqının qüruru, milli dövlətçilik iradəsinin rəmzi, müasir Azərbaycanın memarı Ulu Öndər Heydər Əliyev də məhz belə ölməz şəxsiyyətlərdəndir.*

Onun parlaq dövlətçilik dühası, xalqına olan sonsuz sevgisi və müstəqil Azərbaycanın qurulması naminə göstərdiyi xidmətlər bu gün də milli yaddaşımızın dərin qatlarında yaşayır və yaşadılır.

Azərbaycan xalqı bu baxımdan xoşbəxtdir ki, onun müstəqil dövlətçilik yolunun memarı və təminatçısı olan Ulu Öndər Heydər Əliyev, siyasi lider, həm də müasir Azərbaycanın banisi və qurucusu kimi tarixə düşüb.

Azərbaycan tarixinin müasir dövrü, dövlətçiliyimizin bərpası və möhkəmləndirilməsi, xalqımızın milli özünüdərk prosesinin güclənməsi, iqtisadi inkişafın və sosial sabitliyin təmin olunması kimi taleyüklü məsələlər bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev təkcə bir ömür yaşamayıb. O, bir dövr yaşadıb, bir dövlət qurub, bir millətin gələcəyini yenidən yazıb. Onun doğulduğu 1923-cü il Azərbaycan xalqının mürəkkəb bir dövrə qədəm qoyduğu zaman idi. Lakin Naxçıvan şəhərində dünyaya gələn bu şəxsiyyət gələcəyin nəhəng dövlət adamına çevriləcəkdi.

Heydər Əliyev dərin milli ruh və yüksək mənəvi dəyərlərlə böyüyüb. Ailəsi ona həm əxlaqi prinsipləri, həm də zəhmətin nə qədər müqəddəs olduğunu aşılayıb. Hələ erkən yaşlarından savadlanmağa, kitablara həvəs göstərmiş, ölkəsinin tarixinə, coğrafiyasına, xalqına aid olan məlumatlarla yaxından maraqlanmışdır.

Uşaqlıq illəri Azərbaycanın və bütün SSRİ-nin olduqca çətin dövrünə təsadüf edirdi. Bu illərdə iqtisadi çətinliklər, siyasi repressiyalar və sosial dəyişikliklər hər bir ailənin həyatına təsir edirdi. Bütün bu çətinliklərə baxmayaraq, Heydər Əliyev daim çalışqanlıq və iradə nümayiş etdirərək uğurla təhsil almışdır. Onun bu dövrdə formalaşan xarakteri gələcəkdə Azərbaycanın taleyinə təsir edəcək böyük liderliyin təməlini qoyurdu.

Gənclik illərindən vətənə xidmət düşüncəsi ilə yaşayan Heydər Əliyevin əmək fəaliyyətinə başlaması İkinci Dünya müharibəsi illərinə təsadüf edir. 1941-ci ildə o, Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında işləməyə başlamış, qısa müddətdə arxiv şöbəsinin rəhbəri olmuşdur. Bu vəzifə onun təşkilati qabiliyyətlərini və məsuliyyətli yanaşmasını üzə çıxarmışdır. 1944-cü ildən isə SSRİ Dövlət Təhlükəsizlik Komitəsində (DTK) xidmətə başlamışdır. O, burada müxtəlif məsuliyyətli vəzifələrdə çalışaraq sürətlə irəliləmişdir. 1964-cü ildə Azərbaycan SSR DTK-nın sədr müavini, 1967-ci ildə isə sədri təyin olunmuşdur. General-mayor rütbəsinə qədər yüksəlmiş və DTK sistemində müstəsna etimad qazanmışdır.

Bu dövrdə Heydər Əliyev yalnız təhlükəsizlik sahəsində deyil, ümumilikdə respublikanın ictimai-siyasi həyatında fəal iştirak edən şəxsiyyət kimi formalaşmışdır. Onun fəaliyyəti zamanı respublikada sabitlik təmin olunmuş, kadr potensialının yüksəldilməsinə xüsusi diqqət yetirilmişdir.

Heydər Əliyev Azərbaycanda idarəçilik mədəniyyətini köklü surətdə dəyişdi. İlk olaraq, sənaye və kənd təsərrüfatının inkişafı üçün planlı tədbirlər hazırladı. İnzibati idarəetmə strukturlarına yeni nəfəs gətirdi. Xüsusilə, savadlı, milli kadrlara üstünlük verdi və uzun illər ərzində əhalinin müxtəlif təbəqələrindən olan vətəndaşları rəhbər vəzifələrə irəli çəkdi. Onun təşəbbüsü ilə neft-kimya sənayesində, maşınqayırma və elektrotexnika sahələrində yeni müəssisələr yaradıldı.

Heydər Əliyev gələcəyi daim düşünən lider idi. Onun üçün xalqın sabahı gənclərin bu günü idi. Ulu Öndər dəfələrlə qeyd edirdi ki, təhsilə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Onun təşəbbüsü ilə minlərlə gənc xarici ölkələrdə təhsil almağa göndərildi. O, milli kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi, çünki bilirdi - güclü dövlət savadlı vətəndaşlarla qurulur.

Mədəniyyət, incəsənətə də böyük diqqət yetirildi. Azərbaycanın dünya miqyasında tanınması üçün sovet ideoloji çərçivəsində maksimum imkanlardan istifadə edildi. Bir çox azərbaycanlı gənclər SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərildi, milli kadrlar Moskva səviyyəsində təsdiqlənərək vəzifələrə təyin edildi. Heydər Əliyev SSRİ rəhbərliyi içərisində də öz sözünü deyən şəxsiyyətə çevrilmişdi.

1982-ci ildə isə o, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi və Siyasi büronun üzvü oldu. Bu, Azərbaycan tarixində analoqu olmayan bir hadisə idi. Heydər Əliyev bu vəzifədə ümumittifaq səviyyəsində iqtisadi və sosial layihələrin həyata keçirilməsində fəal iştirak edirdi. Lakin o, Azərbaycanın problemlərini də daim diqqətdə saxlayırdı və vətəninə böyük sevgi ilə bağlı idi.

1987-ci ildə SSRİ rəhbəri Mixail Qorbaçovun başlatdığı "yenidənqurma" siyasəti çərçivəsində Heydər Əliyev müxtəlif səbəblərlə təzyiqlərə məruz qalaraq könüllü istefa verdi və 1987-ci ilin oktyabr ayında vəzifədən getdi.

1990-cı ilin iyul ayında Heydər Əliyev Azərbaycana geri dönərək doğma Naxçıvanını ziyarət etdi və burada böyük bir ehtiramla qarşılandı. Naxçıvan Muxtar Respublikası Ali Sovetinə deputat seçildikdən sonra Ali Sovetin sədri vəzifəsinə təyin olundu. Bu dövr ərzində Naxçıvanda bir sıra mühüm qərarlar qəbul edildi ki, bunlar həm də Azərbaycanın müstəqilliyinə doğru atılmış addımlar idi. 31 dekabr isə Dünya Azərbaycanlılarının Həmrəylik Günü olaraq elan olundu. Bu tədbirlər nəticəsində Naxçıvanda milli şüur daha da inkişaf etdi və Heydər Əliyev burada yalnız bir siyasi lider yox, həm də xalqın mənəvi rəhbərinə çevrildi.

Müstəqillik əldə olunduqdan sonra Azərbaycan daxilində ciddi siyasi qeyri-sabitlik hökm sürürdü. 1992-1993-cü illərdə bir neçə dəfə hakimiyyət dəyişikliyi baş verdi. Ermənistanla müharibə fonunda ölkədə xaos, anarxiya, vətəndaş qarşıdurması, hərbi qiyamlar və iqtisadi tənəzzül baş alıb gedirdi. Gəncə hadisələri nəticəsində ölkədə vətəndaş müharibəsi təhlükəsi real şəkil aldı və bir çox bölgələrdə idarəetmə iflic oldu. Bu çətin vəziyyətdə xalqın yeganə ümidi Heydər Əliyev idi. Minlərlə insan onu Bakıya dəvət edərək, ölkəyə qayıtmasını istədi. 9 iyun tarixində Heydər Əliyev Bakıya gəldi və 15 iyun tarixində Azərbaycan Ali Sovetinin sədri seçildi. Bu hadisə Azərbaycanın müstəqillik tarixində dönüş nöqtəsinə çevrildi və 15 iyun sonradan "Milli Qurtuluş Günü" olaraq dövlət bayramı elan olundu. O, hakimiyyətə qayıtdıqdan sonra dərhal ölkədəki vəziyyəti sabitləşdirmək məqsədilə bir sıra addımlar atdı.

Ümummilli liderin Prezidentliyi Azərbaycanın dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövrü kimi tarixə düşmüşdür. 1993-cü ilin oktyabrında keçirilən ümumxalq səsverməsi nəticəsində o, Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu dövr təkcə idarəetmə baxımından deyil, həm də ideoloji, iqtisadi, hüquqi və diplomatik istiqamətlərdə əsaslı dəyişikliklərin həyata keçirilməsi dövrü idi. İlk növbədə, dövlətçiliyin əsasları qoyuldu. Yeni Konstitusiya qəbul olundu, qanunvericilik orqanı - Milli Məclis formalaşdırıldı. Dövlət strukturları müstəqil və peşəkar əsaslarla təşkil edildi. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin formalaşması, vahid komandanlığın yaradılması və ordu quruculuğu istiqamətində mühüm addımlar atıldı.

Heydər Əliyev üçün dövlət xalqın dayağı, tarixə və gələcəyə körpü salan varlıq idi. O, dövlətə ruh verdi, onun kimliyini təyin etdi, gələcəyini müəyyənləşdirdi. Onun "neft strategiyası" və xüsusilə də "Əsrin Müqaviləsi"nin əhəmiyyəti Azərbaycanın iqtisadi və siyasi müstəqillik tarixində misilsiz rol oynamışdır.

Neft sahəsində aparılan siyasəti yalnız iqtisadi deyil, eyni zamanda siyasi bir strategiya kimi təqdim edirdi. Çünki bu sahədə atılan hər bir addım Azərbaycanın müstəqil və suveren dövlət olaraq dünya arenasında öz yerini tutmasına xidmət edirdi. Əsas məqsəd ölkənin zəngin karbohidrogen ehtiyatlarını beynəlxalq neft şirkətləri ilə əməkdaşlıq çərçivəsində hasil etmək, xarici sərmayəni cəlb etmək və əldə edilən



gəlirləri xalqın rifahına yönəltmək idi.

Bu strategiyanın əsas sütunlarından biri isə 1994-cü il 20 sentyabr tarixində Bakıda imzalanan və "Əsrin Müqaviləsi" adını almış beynəlxalq neft sazişi oldu. Müqavilə Azərbaycan hökuməti ilə dünyanın 7 ölkəsindən 11 beynəlxalq neft şirkəti arasında bağlanmışdı. Heydər Əliyev bu müqavilənin imzalanmasını Azərbaycanın yeni tarixinin başlanğıcı kimi qiymətləndirirdi. Müqavilə BMT-də, ABŞ Konqresində və bir sıra beynəlxalq hüquqi institutlarda qeydiyyata alınaraq, Azərbaycanın beynəlxalq hüquq subyekti kimi tanınmasına da əlavə dəstək verdi.

"Əsrin Müqaviləsi" yalnız iqtisadi deyil, həm də geosiyasi hadisə idi. Müqavilənin imzalanması nəticəsində Qərbin aparıcı dövlətləri - xüsusilə ABŞ və Böyük Britaniya - Azərbaycanın təhlükəsizliyi və inkişafı ilə daha yaxından maraqlanmağa başladı. Bu isə Azərbaycanın beynəlxalq münasibətlər sistemində öz mövqeyini gücləndirdi. Müqavilə Azərbaycanı regionda strateji tərəfdaşa çevirdi və Avropa üçün alternativ enerji mənbəyi statusu qazandırdı.

Əldə ediləcək gəlirlərin şəffaf və məqsədyönlü istifadəsini təmin etmək üçün 1999-cu ildə Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradıldı. Bu fondun əsas məqsədi neft gəlirlərini toplamaq, onların iqtisadiyyatın şaxələndirilməsinə və gələcək nəsillər üçün ehtiyat kimi saxlanılmasına yönəltmək idi. Neft Fondu vasitəsilə yollar, məktəblər, xəstəxanalar tikildi, sosial infrastruktur bərpa olundu, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına milyardlarla vəsait yönəldildi. Eyni zamanda fond gəlirlərinin bir hissəsi təhsildə, səhiyyədə və beynəlxalq humanitar proqramlarda istifadə edildi.

"Əsrin Müqaviləsi"ndən sonra ölkəyə milyardlarla dollar həcmində sərmayə yatırıldı. Xarici investorlar Azərbaycanı sabit və etibarlı tərəfdaş kimi tanımağa başladılar. Neft hasilatının artması ilə dövlət büdcəsi möhkəmləndi, manat stabilləşdi, sənaye sektorları inkişaf etməyə başladı. 2005-ci ildən etibarən Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəməri işə düşdü və Azərbaycan neftinin dünya bazarlarına birbaşa çıxışı təmin olundu. Bu isə ölkənin iqtisadi müstəqilliyini möhkəmləndirdi və enerji təhlükəsizliyi sahəsində aparıcı mövqe qazandırdı.

"Əsrin Müqaviləsi" ilə başlanmış neft gəlirləri iqtisadi göstəricilərdə artım yaratdı, həm də sosial rifahın yüksəlməsi üçün yeni imkanlar açdı. Minlərlə yeni iş yeri yaradıldı, regionların inkişafına sərmayələr yönəldi. Təqaüdlər, əməkhaqları və sosial ödənişlər artdı, infrastruktur layihələri icra olunmağa başladı.

Xarici siyasətdə balanslaşdırılmış və çoxşaxəli kurs yürüdüldü. Azərbaycan bir sıra beynəlxalq təşkilatlara üzv oldu, Avropa Şurasına daxil edildi, ATƏT, BMT, İƏT və digər qurumlarla fəal əməkdaşlıq quruldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün diplomatik mexanizmlər işə salındı.

Heydər Əliyev, eyni zamanda 2003-cü ilin prezident seçkilərinə qədər ölkəni ardıcıl və strateji düşüncə ilə idarə etdi. Həmin ildə səhhətində yaranmış problemlər səbəbilə Prezidentliyə namizədliyini geri götürdü və siyasi kursunu davam etdirmək üçün xalqın dəstəyi ilə İlham Əliyevi namizəd kimi irəli sürdü. Bu, hakimiyyətin sivil və demokratik ötürülməsi baxımından mühüm tarixi mərhələ idi.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də milli ideologiyanın - azərbaycançılıq fəlsəfəsinin dövlət siyasəti səviyyəsinə yüksəldilməsidir. O, dəfələrlə çıxışlarında "Bizim hamımızın bir Vətəni var - bu da Azərbaycandır!", - deyə vurğulayırdı. Bu sadə, lakin dərin məna daşıyan ifadə əslində bir millətin birlik fəlsəfəsini formalaşdırdı.

Heydər Əliyevin təşəbbüsü ilə dünya azərbaycanlılarının birliyi və milli həmrəyliyin gücləndirilməsi məqsədilə 2001-ci ilin noyabrında Bakıda ilk Dünya Azərbaycanlılarının Qurultayı keçirildi. Bu qurultay Azərbaycan tarixində ilk dəfə olaraq dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir araya gəldiyi, vahid milli ideya ətrafında birləşdiyi nüfuzlu toplantı idi.

Heydər Əliyev bu tədbirdəki çıxışında qeyd etdi ki, "Azərbaycan dünyanın harasında olursa-olsun, azərbaycanlıların ümumi vətənidir". Bu fikir, yalnız siyasi ritorika deyil, azərbaycanlıların birliyinin əsas ideoloji dayağına çevrildi. Həmçinin bu Qurultay xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının daha fəal, əlaqəli və məqsədyönlü fəaliyyətinə təkan verdi. Ümumazərbaycan Qurultayı Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin ayrılmaz tərkib hissəsi olan milli həmrəyliyin və soydaşlarımız arasında əlaqələrin gücləndirilməsinin təzahürü idi.

Heydər Əliyev təkcə bir dövrün siyasi lideri deyil, Azərbaycanın milli varlığının və müstəqil dövlətçiliyinin banisi kimi tarixə düşdü. Onun rəhbərliyi ilə qurulan müstəqil Azərbaycan Respublikası bu gün öz varlığını davam etdirir. Prezident İlham Əliyev tərəfindən bu siyasi xətt uğurla davam etdirilir, Heydər Əliyevin siyasi irsi qorunur və inkişaf etdirilir.

2004-cü ildə onun adını daşıyan Heydər Əliyev Fondu yaradıldı. Bu fond mədəniyyət, elm, təhsil, səhiyyə və sosial layihələr sahəsində fəaliyyət göstərərək, ümummilli liderin adını və ideyalarını yaşadır. Eyni zamanda onun adına ucaldılmış abidələr, açılmış muzeylər, təhsil ocaqları və mədəniyyət mərkəzləri Azərbaycanın hər yerində onun dərin xatirəsinə ehtiramın göstəricisidir.

"Güclü iqtisadiyyatı olan dövlət hər şeyə qadirdir" fikrini söyləyən Ulu Öndər Heydər Əliyev özünün zərgər siyasi gedişləri ilə güclü dövlətin təməlini, ölkəmizin suverenliyinin bütün ərazilərində tam şəkildə bərqərar olmasının əsasını qoymuşdu. Heydər Əliyevin ideyaları, strateji baxışı və dövlətçilik məktəbi bu gün də yaşayır, inkişaf edir. O, bir lider kimi yalnız öz zamanını deyil, gələcəyi də düşünən nadir şəxsiyyətlərdən biri idi.

Bu gün müasir Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin təməlində məhz Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs dayanır. Prezident İlham Əliyev bu kursu müasir çağırışlara uyğun şəkildə davam etdirərək Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırıb, ölkəmizi güclü və qalib dövlətə çevirib.

Azərbaycanın müasir tarixində Qarabağ problemi onilliklər boyunca xalqımızın ən ağır yarası olmuşdur. Hələ 1980-ci illərin sonlarında baş qaldıran separatçı meyillər, Sovet İttifaqının süqutundan sonra genişmiqyaslı hərbi qarşıdurmaya çevrildi. 1990-cı illərin əvvəllərində baş verən Birinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımızın 20 faizi işğal olundu, bir milyondan çox insan doğma yurdlarından məcburi köçkün düşdü.

Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və gələcək nəsillər üçün əmin-amanlıq təmin etmək məqsədilə strateji xətt müəyyənləşdirdi. Bu siyasətin ən mühüm istiqamətlərindən biri də Qarabağ probleminin dinc, diplomatik yolla, beynəlxalq hüquq normaları çərçivəsində həllinə çalışmaq idi. Lakin o da çox yaxşı bilirdi ki, bu münaqişənin həlli yalnız güclü dövlət, güclü iqtisadiyyat və ən əsası, güclü ordu vasitəsilə mümkün olacaq. Bu səbəblə Heydər Əliyev ömrünün son illərində Qarabağ məsələsinin həllini bir vəsiyyət kimi oğlu İlham Əliyevə tapşırmışdı.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev də bu tarixi məsuliyyəti və mənəvi borcu layiqincə daşıdı. Onun öz sözləri ilə desək: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim". Məhz bu vəsiyyətin gücü, Ulu Öndərin qurduğu dövlətçiliyin möhkəm təməli və İlham Əliyevin müdrik, qətiyyətli rəhbərliyi nəticəsində Azərbaycan 2020-ci ildə tarix yazdı.

27 sentyabr 2020-ci ildə başlanan 44 günlük Vətən müharibəsi illərlə davam edən işğala son qoydu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun bölmələri qısa müddətdə misilsiz uğurlar qazandılar. Şuşa şəhərinin azad olunması ilə müharibənin taleyi müəyyənləşdi və Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, beynəlxalq hüququn prinsipləri icra olundu və xalqın otuz illik nisgili sona çatdı.

2023-cü ilin sentyabrında cəmi 23 saat davam edən lokal antiterror tədbirləri nəticəsində isə Qarabağdakı erməni silahlı birləşmələri tam zərərsizləşdirildi. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, "Erməni separatizminin tabutuna son mismar vuruldu" və Azərbaycan Konstitusiyasının tam hüquqla bütün ərazilərimizdə tətbiq olunması təmin edildi. 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunması da bu baxımdan rəmzi məna daşıyır. Bu il, eyni zamanda Ulu Öndər Heydər Əliyevin 102 illik yubileyinə təsadüf edir. Bu isə bir daha sübut edir ki, Azərbaycanın bugünkü uğurlarının təməlində Heydər Əliyev ideyaları, onun yaratdığı dövlətçilik məktəbi dayanır.

Heydər Əliyev Azərbaycan xalqının yaddaşında böyük dövlət xadimi, xilaskar lider və əbədi rəhbər kimi qalacaq. Onun həyat və fəaliyyəti bütöv bir dövrün aynası, Azərbaycanın keçid və dirçəliş mərhələlərinin əsas istiqamətvericisi olmuşdur. O, öz zəhməti, müdrikliyi və siyasi iradəsi ilə yalnız Azərbaycan xalqının deyil, bütün dünyanın hörmətini qazanmış nadir şəxsiyyətlərdəndir.

Ümummilli Lider Heydər Əliyevin ruhu qarşısında baş əyir, xalqımızın bütün zəfərlərini onun müdrik ideyalarının parlaq nəticəsi kimi qəbul edirik.

**Azər ALLAHVERƏNOV,**
**Milli Məclisin deputatı.**